"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2019, № 2
"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2019, № 2
УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2019, № 2

UOT 336,1;336,22

**NAİB MURADOV**
Naxçıvan Dövlət Universiteti
naibmuradov95@gmail.com

03

# AZƏRBAYCAN RESPUBLİKASINDA İNKİŞAFA YÖNƏLDİLMİŞ VERGİ SİYASƏTİNİN ƏSAS MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ

*İqtisadiyyatda real sektorun dəstəklənməsi və sahibkarlığın inkişaf etdirilməsi siyasətinə üstünlük verən Azərbaycan rəhbərliyi milli iqtisadiyyatın dayanıqlı inkişafını təmin etmək məqsədilə real sektorun dəstəklənməsi siyasətinin tərkib hissəsi kimi ölkədə vergi alətlərindən də səmərəli şəkildə istifadə etməkdədir. Azərbaycan Respublikasında real sektorun inkişafını təmin etmək məqsədilə vergi sisteminin ən optimal variantda qurulması üçün müəyyən işlər görülmüşdür.*

*İnkişafa yönəldilmiş vergi sistemi ölkənin daxili və xarici mühitindən asılıdır. Bu mühit amilləri nəzərə alınmaqla müvafiq olaraq vergi sisteminin qurulması üçün prinsiplər müəyyənləşdirilmişdir. Bu prinsiplər əsasında həyata keçirilən vergi siyasəti ölkə iqtisadiyyatında şirkətlərin və təsərrüfat subyektlərinin mənfəət və gəlirlərinin artmasına şərait yaratmışdır. Bu isə öz növbəsində ölkə iqtisadiyyatının inkişafına və əhalinin sosial rifahın qaldırılmasına müsbət təsir göstərməkdədir.*

**Açar sözlər:** *vergi, vergitutma, məqsəd, vəzifə, prinsip, siyasət, dövlət, büdcə, kapital qoyuluşu.*

Vergi siyasətinin məqsəd və vəzifələri konkret iqtisadi şəraitdən asılıdır. Məqsəd və vəzifələr müəyyən edildikdən sonra dövlət onların həyata keçirilməsi üsullarını işləyib hazırlayır. Vergi siyasətinin məqsədləri heç də dayanıqlı və sabit deyildir. Bu və ya digər üsullardan istifadə edilməsi konkret vəziyyətdən asılıdır.

Vergi siyasətinin həyata keçirilməsi metodları dövlətin nail olmağa çalışdığı məqsədlərdən asılıdır. Müasir dünya təcrübəsində vergi ödəyicilərinin vergi yükünün dəyişdirilməsi, vergitutmanın bir formasının digəri ilə əvəz edilməsi, bu və ya digər verginin təsir dairəsinin dəyişdirilməsi, vergi güzəştlərinin tətbiqi və ya ləğvi, differensial vergi dərəcələrinin tətbiqi geniş yayılmışdır.

Onlar bir sıra amillərin təsiri altında formalaşır ki, bunlardan da ən mühümü ölkədəki iqtisadi və sosial şəraitdir. Adətən ölkədə aparılan vergi siyasətinin məqsəd və vəzifələri konkret iqtisadi konyukturadan asılı olaraq müəyyənləşir. Vergi siyasətinin əsasları hər il qəbul edilən dövlət büdcəsində öz əksini tapır. Müasir şəraitdə inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələr vergi siyasətini aşağıdakı əsas məqsədlərə nail olmaq üçün aparırlar:

- təsərrüfat fəaliyyətinin stimullaşdırılmasına və ya məhdudlaşdırılmasına yönəldilmiş iqtisadi tənzimləmədə dövlətin iştirakı;
- iqtisadi və sosial siyasəti həyata keçirmək və öz üzərlərinə düşən funksiyaları yerinə yetirmək üçün bütün hakimiyyət orqanlarının maliyyə resurs-

**Məqalə tarixçəsi:**
Göndərilib: 16.05.2019, qəbul edilib: 08.06.2019

ları ilə təmin edilməsi;

- dövlətin gəlirləri tənzimləmə siyasətinin təmin edilməsi.

Vergi siyasətinin əsas məqsədi vergi ödəyicilərindən vergilərin tutulmasının hüquqi qaydalarını təmin etməklə bərabər vergitutmanın təsiri altında formalaşan iqtisadi münasibətlərin hərtərəfli qiymətləndirilməsidir.

Vergi siyasətinin metodlarından biri də maksimal vergilər siyasətidir. Bu halda dövlət kifayət qədər yüksək vergi dərəcələri müəyyən edir, vergi güzəştlərini azaldır və çoxlu sayda vergilər tətbiq edir, öz vətəndaşlarından daha çox maliyyə resursları almaq istəyir. Təbii ki, bu cür vergi siyasəti vergi ödəyicisinə praktik olaraq iqtisadi inkişaf üçün heç bir ümid vermir. Buna görə də bu cür siyasət bir qayda olaraq dövlət tərəfindən fövqəladə hallarda aparılır, məsələn iqtisadi böhran, müharibə və s. hallarda. Bu cür vergi siyasəti kəskin neqativ nəticələrə səbəb ola bilər ki, bunlar da aşağıdakılardır:

Birincisi, vergiləri ödədikdən vergi ödəyicilərində praktik olaraq maliyyə resursları qalmır ki, bu da geniş təkrar istehsalı mümkünsüz edir. Nəticədə istehsalın bütün sahələrində artım tempi aşağı düşür. İkincisi isə vergidən yayınma halı kütləvi xarakter alır. Bu da ona gətirir ki, dövlət ona çatmalı olan bütün vergiləri yığa bilmir. Üçüncüsü isə «kölgə iqtisadiyyatı» kütləvi hal alır. Vergidən gizlədilmiş maliyyə resursları istehsalın inkişafına yönəldilmir, xaricdəki bank hesablarına köçürülür. Ona görə də dövlətin vergi siyasəti çox qopartmağa deyil, sahibkarlığın inkişafına kömək etməlidir.

Vergi siyasəti həyata keçirilən zaman dövlətin iqtisadiyyatı tənzimləməsinin vergi alətləri olan vergi dərəcəsi, vergi güzəşti, vergitutma bazası və s. vasitəsilə baş verir. Dövlət bu zaman həm birbaşa, həm də vasitəli vergi alətlərindən istifadə edir.

İqtisadi, siyasi və digər fərqlərə baxmayaraq hər bir dövlətin vergi siyasəti ilk növbədə onunla müəyyən olunur ki, dövlət özü təkrar istehsal prosesinin fəal iştirakçısı kimi çıxış edir. Dövlətin əsas məqsədi cəmiyyətin qarşısında duran iqtisadi və sosial məsələlərin həll edilməsidir ki, bu da vergi siyasətinin formalaşmasına öz təsirini göstərir.

Qeyd etmək lazımdır ki, Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında müstəqillik yolu ilə irəliləyən Azərbaycan Respublikasında bazar iqtisadiyyatının formalaşdırılması, onun dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində aparılan məqsədyönlü iqtisadi siyasət çərçivəsində çevik vergi siyasəti həyata keçirilir.

Respublikada aparılan vergi siyasəti vergi dərəcələrinin aşağı salınması və vergi güzəştlərinin azaldılması hesabına vergitutma bazasının genişləndirilməsinə, iqtisadiyyata investisiya qoyuluşunun stimullaşdırılmasına, hüquqi şəxslərlə fərdi sahibkarlar arasında, rezident və qeyri-rezident vergi ödəyiciləri arasında vergi yükünün bərabərləşdirilməsinə, kiçik və orta sahibkarlıq, biznes fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasına və son nəticədə mövcud iqtisadi potensialın artırılmasına və əhalinin maddi rifahının yüksəldilməsinə yönəldilmişdir.

Qeyd etmək lazımdır ki, vergi siyasəti büdcə siyasətinin tərkib hissəsi olub, büdcənin gəlir hissəsinin formalaşdırılmasına xidmət edir və büdcənin xərc hissəsi nəzərə alınmadan həyata keçirilə bilməz.

Azərbaycan dövlətinin bu günkü büdcə siyasəti aşağıdakı istiqamətlərdə aparılır:

- sosial müdafiə siyasəti;





- istehsal sferasının inkişafı siyasəti;
- «maksimal vergi» siyasəti.

Dövlətin büdcə siyasətinin qeyd olunan hər üç istiqaməti büdcənin formalaşdırılmasının aşağıdakı iki prinsipinə əsaslanır:

- imkanlara əsaslanan büdcə (kəsirsiz və ya az kəsirli);
- tələbata əsaslanan büdcə (böyük büdcə kəsiri).

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında həyata keçirilən vergi siyasətinin əsas istiqamətlərini özündə birləşdirən Vergi Məcəlləsi iqtisadi bazisin inkişafını stimullaşdırmaq, rəqabətə davamlı məhsullar istehsal edən müəssisələrin vergi yükünü azaltmaq, müxtəlif üsullarla kapital qoyuluşunu cəlbedici etmək istiqamətində islahatların həyata keçirilməsi üçün geniş imkanlar açır.

Vergi Məcəlləsi Azərbaycan Respublikasında vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydalarını müəyyən edir.

Respublikada vergi siyasəti aşağıdakı prinsiplər nəzərə alınmaqla həyata keçirilir:

- vergi sisteminin normativ-hüquqi bazasının yaradılması, vergi mədəniyyətinin formalaşdırılması, modernləşdirilmiş istehsal-mülkiyyət sistemi əsasında sabit iqtisadi artım üçün şərait yaradılması;
- vergi siyasətinin mövcud vəsaitlərin yenilik və dəyişikliklərin həyata keçirilməsinə yönəldilməsi;
- vergi ödəyicilərinin fəaliyyəti üçün əlverişli şəraitin yaradılması və vergi ödəyicilərinin hüquqlarının maksimum qorunması;
- vergi yükünün optimal səviyyədə azaldılması;
- vergi qanunvericiliyinə əməl edilməsinin praktiki cəhətdən rahat olması və minimum inzibati xərclər cəlb etməsi üçün müvafiq şəraitin yaradılması.

Yuxarıda göstərilən prinsiplər əsasında Azərbaycan Respublikasında həyata keçirilən vergi siyasətinin əsas istiqamətləri aşağıdakılardır:

- Respublikanın iqtisadi təhlükəsizliyinin təmin edilməsinə yönəldilən tədbirlərin həyata keçirilməsi;
- Respublikanın ixrac potensialının inkişafının təmin edilməsi;
- Respublikanın güclü iqtisadi potensialının yaradılması məqsədi ilə daxili və xarici investisiyaların prioritet sahələrə cəlb edilməsinə əlverişli vergi mühitinin yaradılması;
- vergi xidməti orqanları əməkdaşlarının səmərəli fəaliyyət göstərməsi məqsədi ilə vergi orqanlarının maddi-texniki bazasının əhəmiyyətli dərəcədə möhkəmləndirilməsi və s.

Respublikada həyata keçirilən vergi siyasətinin əsas istiqamətlərindən biri də vergi ödəyicilərinin məlumatlandırılması və vergi təbliğatıdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında vergi siyasətinin təkmilləşdirilməsi, vergi islahatlarının aparılması sahəsində işlər davam etdirilir. Bu islahatların davam etdirilməsi prosesində aşağıdakı məsələlərə xüsusi diqqət yetirilməlidir:

- Ümumi məqsədyönlülük, yəni vergi sisteminin qurulmasında və səmərəliliyinin artırılmasında onun iqtisadi inkişafa məcmu təsirindən çıxış edilməsi;

- Sadəlik, yəni vergilərin müəyyən edilməsi və onların yığılması sahəsində hər cür bürokratik manеələrin aradan qaldırılması, tətbiq olunan çoxsaylı hesabat formalarının sayının azaldılması və müəssisələrin mühasibat bölmələrinin işindəki gərginliyin azaldılması;

- Fiskal səmərəlilik, yəni dövlətin və vergi ödəyicilərinin vergilərin yığılması ilə bağlı xərclərinin vergi daxilolmalarından dəfələrlə az olması, əks halda dövlətin əsas xərclərinin maliyyələşdirilməsinə vəsait çatışmamazlığının labüdlüyü;

- Büdcənin və vergi ödəyicilərinin gəlirlərinin inflyasiyadan müdafiəsi, yəni büdcənin maraqları çərçivəsində inflyasiya amilinin nəzərə alınması, vergi ödəyicilərinin müflisləşməsinin və vergiyə cəlb olunan bazanın azalmasının qarşısının alınması, vergi ödəyicilərinin hüquqlarının qorunmasının maksimum təmin edilməsi.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Bakı, 2015.
2. Musayev A., Əmirov N., Həsənli Y. "Vergi sisteminin sabitliyinin iqtisadi artıma təsirinin qiymətləndirilməsi", Azərbaycan vergi xəbərləri, №5, 2006.
3. F. Ə. Məmmədov, A. F. Musayev və digərləri, "Vergilər və vergitutma", Bakı, 2010.
4. Kəlbiyev Y.A. "Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri". Monoqrafiya, Bakı, Elm, 2005.
5. Musayev A., Əmirov N., Həsənli Y. "Fiskal siyasətin səmərəliliyinin qiymətləndirilməsi. I və II tip Lafer nöqtələrinin tapılması", №3, 2006.


## РЕЗЮМЕ

**НАИБ МУРАДОВ**

### ОСНОВНЫЕ ЦЕЛИ И ПРИНЦИПЫ НАПРАВЛЕННЫЕ НА РАЗВИТИЕ НАЛОГОВОЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Азербайджанское руководство,которое придает превосходство политике поддержки реального сектора экономики с целью обеспечения развития национальной экономики в стране использует налоговую систему. В Азербайджанской республике с целью обеспечения развития реального сектора были выполнены работы построения в налоговой системе в самых оптимальных вариантах.

Налоговая система, которая устремлена на развитие зависит от внешней и внутренней среды. Для построения налоговой системы были утверждены принципы. На основе этих принципов в экономике страны увеличивается прибыль и доходы компаний и субьектов хозяйства. А это в свою очередь положительно влияет на развитие экономики страны социальное обеспечение населения.

**Ключевыеслова:** Налог, налоговложение, цель, должность, принцип, полититика, государство, бюджет, капиталовложение политика





## SUMMARY

**NAIB MURADOV**

### THE MAIN GOALS AND OBJECTIVES OF THE TAX POLICY AIMED AT DEVELOPMENT IN THE REPUBLIC OF AZERBAIJAN

The Azerbaijan government that prefers supporting the real sector in economy and the policy of entrepreneurship development, is effectively taking the advantage of tax instruments in the country as part of the policy of supporting the real sector in order to ensure the sustainable development of the national economy. In order to ensure the development of the real sector in the Republic of Azerbaijan, certain work has been done to build the tax system in the most optimal variant.

The development-oriented tax system depends on the country's internal and external environment. The principles for establishing the tax system have been identified, taking into account these factors. The tax policy carried out under these principles has created opportunities to the growth of profits and income of companies and agricultural entities in the country's economy. This, in turn, positively affects the development of the country's economy and the social welfare of the population.

**Keywords:** tax, taxation, purpose, duty, principle, politics, state, budget, capital investment.

*(İqtisad üzrə fəlsəfə doktoru, dosent C.Mahmudov tərəfindən təqdim edilmişdir)*